AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

Ə M R

№ 69

Bakı şəhəri "08" sentyabr 2010 il

**"Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi haqqında"**

"Əhalinin sağlamlığının qorunması məqsədi ilə Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2009-cu il tarixli 891-III QD nömrəli Qanununu və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında" 09.01.2004-cü il tarixli 2 nömrəli qərarını rəhbər tutaraq Azərbaycan Respublikasının səhiyyə sistemində çalışan tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 06.06.2007-ci il tarixli 54 nömrəli əmrinin 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.
3. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Əmrin layihəsini hazırlamışdır:

Kadrlar, elm və təhsil
şöbəsinin müdiri K.Mehdiyeva

Razılaşdırılıb:

Nazir müavini A.Vəlibəyov

Nazir müavini N.Əliyeva

Nazir müavini E.Ağayev

Aparatın rəhbəri Z.Mustafayeva

Baş məsləhətçi hüquqşünas E.Əzizov

ÜŞ
TYTŞ
SENS
KETŞ
MİŞ -
BMH

000932

# TİBB İŞÇİLƏRİNƏ İXTİSAS DƏRƏCƏSİNİN VERİLMƏSİ QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında" 09.01.2004-cü il tarixli 2 nömrəli qərarına uyğun olaraq hazırlanmış, büdcədən maliyyələşdirilən səhiyyə müəssisə, idarə və təşkilatlarında tibbi xidmət sahəsində yüksək iş təcrübəsi ilə fərqlənən rəhbər (həkim, provizor və digər tibb ixtisası tələb olunan), həkim, provizor və orta tibb heyəti vəzifələrində çalışan səhiyyə işçilərinə (bundan sonra ismin müvafiq halında "tibb işçiləri" adlandırılacaq) ixtisas dərəcəsinin verilməsi qaydalarını müəyyən edir.

1.2. Tibbi xidmət sahəsində yüksək iş təcrübəsi, peşəkarlıq səviyyəsi ilə fərqlənən tibb işçilərinə ali, birinci və ikinci ixtisas dərəcəsi verilir. Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyasının nəticələrinə uyğun olaraq müəyyən edilir.

## 2. İxtisas dərəcəsinin verilməsinə qoyulan tələblər

2.1 Səhiyyə müəssisələrində çalışan və ixtisası üzrə əmək stajı beş ildən az olmayan ali və orta təhsilli tibb işçiləri ardıcıllıqla (ikinci, birinci, ali) ixtisas dərəcəsini almaq hüququna malikdirlər.

2.2 İxtisas dərəcəsini almaq üçün tibb işçiləri sertifikasiyaya təqdim etdikləri sənədlər ilə yanaşı müəssisənin möhürü və rəhbərin imzası ilə təsdiq edilmiş ixtisası üzrə 5 illik fəaliyyəti haqqında hesabatı və xasiyyətnaməni təqdim etməlidirlər.

2.3. Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi haqqında qərar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra "Nazirlik") tərəfindən tibb işçilərinin sertifikasiyasının müsahibəsini aparan İxtisas Komissiyalarının rəyi əsasında qəbul edilir.

2.4. İxtisas Komissiyanın üzvləri tərəfindən praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün sertifikasiyadan keçən tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi məqsədi ilə səhiyyə mütəxəssisinin beş il ərzində ixtisası üzrə fəaliyyəti barədə hesabatı ilə tanış olaraq, onların ixtisasına aid praktiki bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən suallar verilir.

2.5. Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi barədə İxtisas Komissiyası tərəfindən rəy hazırlanarkən onların mövcud ixtisas dərəcəsinin təsdiq və ya dəyişdirilməsi barədə Nazirlik qarşısında vəsatət qaldırılır.

2.6. İxtisas dərəcələrin verilməsi aşağıda qeyd olunan meyarlara əsasən müəyyən edilir:

-II dərəcə: ixtisası üzrə 5 il stajı olan, tutduğu vəzifədə ixtisası üzrə sərbəst fəaliyyət göstərən, mütəxəssis kimi iş yerindən müsbət xarakterizə olunan;

-I dərəcə: ixtisası üzrə 10 ildən artıq stajı olan, ixtisası üzrə sərbəst fəaliyyət göstərən, ixtisasına aid müxtəlif tədbirlərdə iştirak edən, mütəxəssis kimi iş yerindən müsbət xarakterizə olunan;

-ali dərəcə: ixtisası üzrə 15 ildən artıq stajı olan, ixtisasına uyğun yüksək ixtisaslaşdırılmış tibbi xidmət göstərməyə bacarığı olan, elmi-praktiki konfranslarda iştirak edən, mütəxəssis kimi iş yerindən müsbət xarakterizə olunan. İxtisas komissiyası tərəfindən namizədin tibb fəlsəfə doktoru və ya tibb elmlər doktoru elmi dərəcəsinin olması, rezidenturanı bitirilməsi, elmi məqalələrin dərc edilməsi nəzərə alınır.

2.7. İxtisas Komissiyaları tərəfindən verilən rəy müvafiq formada (əlavə 1) hazırlanır və komissiyanın sədri, katibi və üzvləri tərəfindən imzalanır və təsdiq üçün Nazirliyə təqdim olunur. Nazirliyin əmri ilə bir həftə ərzində tibb işçisinə müvafiq formada ixtisas dərəcəsi barədə Şəhadətnamə (əlavə 2) verilir.

2.8. Tibb işçilərinə ixtisas dərəcəsi beş il müddətinə verilir.

## 3. İxtisas dərəcəsinə görə əlavə haqq

3.1. İxtisas dərəcəsi olan tibb işçisinə hər ay aşağıdakı miqdarda əlavə haqq ödənilir:

-ali ixtisas dərəcəsinə görə - vəzifə maaşının 25 faizi miqdarında;

-birinci ixtisas dərəcəsinə görə - vəzifə maaşının 15 faizi miqdarında;

-ikinci ixtisas dərəcəsinə görə - vəzifə maaşının 10 faizi miqdarında.

3.2. İxtisas dərəcəsinə görə əlavə haqq ixtisas dərəcəsinin hansı ixtisasa görə verilməsindən asılı olmayaraq ixtisas dərəcəsinin qüvvədə olduğu müddətdə (sonuncu ay tam nəzərə alınmaqla) ixtisas dərəcəsinin alındığı növbəti aydan başlayaraq ödənilir.

3.3. İş yerini dəyişən tibb işçisinin ixtisas dərəcəsi saxlanılır.

## 4. Yekun müddəalar

4.1. İxtisas dərəcəsinin verilməsi ilə əlaqədar mübahisəli məsələlərə qanunvericiliyə müvafiq qaydada məhkəmədə baxılır.